*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2023, №2* *ISSN: 2664-5432*
*Səhifə: 90-94*
*http://doi.org/10.59849/2664-5432.2023.2.90*

**RAFİQ MƏMMƏDOV***

# QARABAĞ FOLKLORUNDAKI LƏQƏB, TƏXƏLLÜS VƏ TİTULLAR

## XÜLASƏ

Azərbaycan dilinin onomastikasının müəyyən bir layını ləqəb, təxəllüs və titullar təşkil edir. Ləqəb, təxəllüs və titullar onomastikanın antropologiya bölməsində yardımçı adlar kimi öyrənilir. Heç bir dili və bu dilin antropoloji sistemini yardımçı adlarsız düşünmək mümkün deyidir. Ləqəb, təxəllüs və titullar nə qədər eyni sistemdə - antropologiyada öyrənilsə də, onlar arasında fərqli nüanslar da az deyildir. Ləqəblər insanlara cəmiyyət tərəfindən verilsə də, təxəllüsləri insanlar özləri seçirlər. Titullar isə müəyyən bir təbəqəyə dövlət tərəfindən verilir. Hər üç yardımçı ad silsiləsinə Qarabağ folklorundakı nümunələrdə sıx-sıx rast gəlinir. Məqalədə məhz Qarabağ folklorunda rast gəlinən ləqəb, təxəllüs və titullardan bəhs edilmişdir.

**Açar sözlər**: *titul, təxəllüs, ləqəb, yardımçı, antropologiya, ad.*

Antroponimlər Azərbaycan onomastikasında önəmli mövqeyə malikdir. Antroponimlər əsas və köməkçi ad sisteminə bölünürlər. İnsan doğulan zaman ona verilən ad, soyad əsl ad sayılır. İnsana verilən əsl ad rəsmi olur. Onlar yalnız dövlət tərəfindən dəyişdirilə bilər. Türklərdə lap qədimlərdən əsas və köməkçi ad sistemi mövcud olmuşdur. Əsas ad sistemindən fərqli olaraq, ləqəblər, təxəllüslər rəsmi xarakter daşımır. Titullar isə rəsmi şəkildə insana həyatının müxtəlif mərhələlərində verilir. Ləqəblər isə cəmiyyət üzvləri və ətraf insanlar tərəfindən düzəldilib qoyulur.

Lüğətdə yazılır:"***Ləqəb*** ərəb mənşəli sözdür. Türk sözü kimi sinonimi ***ayama*** leksik vahididir. Ləqəblər iki növə bölünür: əsl adsız işlənən ləqəblər; əsl adla işlənən ləqəblər" [Adilov: 2019, s.31]. M.Adilov və A.Paşayev ləqəbləri belə təsnif edir: "*1. Təsviri; 2. Səciyyələndirici*.

Səciyyələndirici ləqəblər şəxsin mənfi və müsbət xüsusiyyətlərini səciyyələndirir. Təsviri ləqəblər şəxsin xarici görünüşü ilə əlaqəli olur. [Adilov: 2019, s.31].

"Oğuznamə"də göstərilir ki, *ər ləqəblə tanınır*. Oğuzlar içərisində özünü ər hesab edən hər bir kəs üçün ləqəb ən zəruri şərt hesab edilmişdir. Belə ad el ağsaqqalının iştirakı və birbaşa müdaxiləsi ilə verilir və ictimai ad kimi qəbul olunurdı. El ağsaqqalının verdiyi ad dəyişdirilməz, heç bir etiraz doğurmazdı. Ona görə ki qədim türklərdə advermə nə qədər şərəfli idisə, bir o qədər də məsuliyyətli idi [Xalıqov: 2009, s.54].

"...ləqəblər insana onun adı ilə bərabər verilir, bəzən onun bu və ya digər xüsusiyyətini, xarici görkəmini, əmək fəaliyyətinin müəyyən əlamətlərini göstərən sözlər kimi izah edilir" [Флоровская: 1971, s.141]. Şəxsin sənəti, peşəsi, fərdi xüsusiyyətləri ləqəb vasitəsilə səciyyələndirilir.

Qarabağ folklorunda işlənmiş ləqəbləri bu cür təsnif edə bilərik:

**1.Şəxsin sənəti, peşəsi, məşğuliyyəti ilə bağlı ləqəblər**: Onun nəslinnən *Hajı Murad, Qatırçı Murad* addı birisi oluf. Həmən o *Qatırçı* Murad bı *Qatırçı* Muraddı [Qarabağ: folklor da bir tarixdir: 2012, s.210]. *Tacir* Məhəmməd, vallah, bəəndə bir zənən oturuf, elə deməh olar ki, xana-bəyə layıxdı [Xalıqov: 2009, s.254]. Bu toy eliyəndə *Aşıq* İmran, mənim ustadım *Aşıq* Məhərrəm, mən də kiçik yaşdarımda bunnarın yanında örgənən vaxtı bunlar to-

* Bakı Slavyan Universiteti, Müasir Azərbaycan dili kafedrasının dissertantı, *fatehmemmedli@mail.ru*

ya gəldi. Salahlı prokuror Paşa da toyun tamadası idi (Miflər, əfsanə və rəvayətlər) [Xalıqov: 2009, s.123]. *Ovçu* Pirimə də Süleyman peyğəmbər duvanı örgədifdi [Xalıqov: 2009, s.301]. *Qaçax* Azad addı biri oluf. Əsli Saatdı, Sabirabad tərəfdən oluf. Biz tərəflərə də gəlirmiş. Saz aşığı erməni gəlir. *Zərgər* Məhəmməd olufdu Bakıda. Güjdü, tanınmış adam olufdu. *Palaçı* Məmməd oluf. İlannarı o taydan o keçirif bəriyə. Deməh, bı Qavırrı yaylağında bılar vırışıflar. *Pala-bərə* deməkdir. Palaçı-bərəçidir. Bərəçiliklə məşğul olan adamlar haqqında işlənir. Palaçı-sözünə əsasən Qarabağ foklorunda rast fəlinir.

**2.Şəxsin xarakteri, xasiyyəti ilə bağlı ləqəblər**. *Cəfər Cinni* şeytannarın başçısı oluf, ən böyühləri oluf. Şeytannar nə iş görüfsə, onun əmriynən görüf örünmür. "Bını götürüf aparıllar *Cinni* Cəfərin yanına. *Cinni Cəfər* bınnan xəbər alır ki, sən kimsən?" [Qarabağ: folklor da bir tarixdir: 2012, s.254].

Bəzən folklorda elə faktlara rast gəlirik ki, orada ləqəb addan sonra gəlir. Məsələn, Cəfər Cinni. ***Cinni*** sözü burada Cəfər antroponiminin köməkçi adı olub əsas antroponimdən sonra gəlir. "Həzrət əli ilə *Cinni* Cəfər"(nağıl). "Bı *Sofu Usufun* əsli İrannan gəlmişmiş. Onun üç oğlu vardı. O kəntdəri gəzərdi. *Sofu*- Ərəb mənşəli leksik vahid olub hər şeydən iyrənən, şübhələnən, çəkinən; vasvası adam deməkdir. Bu ləqəb şəxsin xarakteri, xasiyyəti ilə bağlı ona verilmişdir" [Qarabağ: folklor da bir tarixdir: 2012, s.300].

**3.Şəxsin zahiri görünüşü ilə bağlı ləqəblər.** Bizim kəntdə *Keçəl* Həsən oluf, varrı oluf. Sovet gələndə qaçıf.

**4.Şəxsin həyatda qazandığı uğur və uğursuzluqla əlaqəli verilən ləqəblər.** Qarabağ folklorunda işlənmiş nümunəyə nəzər salaq: "1970-ci illərdə Bərdə rayonunda *Qeroy* Həsən Kərimov toy eliyir.

**5.Şəxsin doğulduğu yerlə, məkanla bağlı verilən ləqəblər.**

Ədalətsən kanı-kərəm,
Namərdə boyun əymərəm.
*Ağbulaxlı* Məhərrəməm,
Doğru sözü seçən yerdə [Qarabağ: folklor da bir tarixdir: 2012, s.290].

**6.Mənsub olduğu etnonimə görə şəxsə verilən ləqəb.** Deyir ki, gedif *Avdal* Qasımı bağlıyajam. *Avdal* Qasım da, deyir, yolun qırağında qolunu yayıf söykənif ağaca. Erməni *Avdal* Qasımı görməmişdi, tanımırdı, amma eşitmişdi Qasım belə hazırcavab adamdı [Qarabağ: folklor da bir tarixdir: 2012, s.342].

Azərbaycan dilinin dialektoloji lüğətində *avdal* leksik vahidinin semantik mənası axmaq, sərsəridir. Əsasən, Gəncə, Şəki, Şəmkir dialektlərində işlənir. *Avdalın biridi, u:n sözünə inamma* (Şəki); – *Özünü itirif, laf avdal kökünə düşüf* (Şəmkir). Sufi təriqətinə inanan dərvişlər özlərinə "avdal/abdal" təxəllüsü götürürdülər. Onların fikrincə, dünya dərk olunmayandır. İnsan heç vaxt dünyanı tam dərk edə bilməz. Yəni insan heç vaxt aqil, hər şeyidən xəbərdar deyil. Bu bir növ sufi dərvişlərinin, şeyxlərinin təvazökarlığından irəli gəlirdi. Səfəvilərin böyük ideoloqu, sufi şeyxi Miskin Abdal olmuşdur. Abdal komponentli oykonim, oronim, və etnonimlər də çoxdur: "Boz *Abdal*— Şimali Azərbaycanın Ağdam (Abdal), Oğuz (Abdallı), Kəpəz (Çoban-Abdallar) və Laçın (keçmiş Abdallar kəndi), Qubadlı (Abdalanlı) rayonlarında bu aykonimə rast gəlinir. Bundan başqa, Ordubad və Tovuz rayonlarında Abdal adında dağ olması barəsində məlumat vardır. Qərbi Azərbaycan ərazisində (indiki Ermənistan) Avdal, Yuxarı Avdallar, Avdal Ulva kənd adları və Avdalağa qala adı qeydə alınmışdır. İrəvan quberniyasının Aleksandropol qəzasında dağ silsiləsinin *adıdır"* [https://az.azvision.az/news.php?id=96299].

V. Florovskayaya görə, ləqəblər insana onun adı ilə bərabər verilir,bəzən onun xüsusiyyətinin, xarici görkəminin, əmək fəaliyyətinin müəyyən əlamətlərini göstərən sözlər kimi izah edilir [Флоровская: 1971, s.55].

Cəmiyyət üzvlərinin adları əhatə dairəsinə,əmələgəlmə mənbələrinə və tərkibinə, yerinə yetirdiyi vəzifəyə, xüsusiyyətlərinə görə bir sira növlərdə birləşir

Təxəllüsün müvəqqəti xarakter daşıdığını, nəsildən nəslə keçmədiyini, onun bir nəslin və ya onu daşıyan adamın ömründən də az olduğunu qeyd edən M. Çobanova etiraz edən F.Xaliqov bəzi təxəllüslərin, məsələn. “Kəngərli” təxəllüslü nəslin dəfələrlə dəyişdiyini qeyd edir [Xalıqov: 2009, s.20]. Təxəllüs ərəb mənşəli söz olub birinci mənası *qurtarma, xilas olma,* 2-ci mənası yazıçıların, şairlərin özləri üçün götürdükləri ad deməkdir. XI əsrdən etibarən geniş şəkildə işlənməyə başlamışdır. Təxəllüs də ləqəb kimi, köməkçi ad funksiyası yerinə yetirmişdir. Təxəllüs ləqəbdən fərqli olaraq rəsmi xarakter daşıyır.

Ləqəblərin yaranmasında titullar az iştirak edir. Onlar əsl şəxs adlarının yaranma prosesində fəaldır. Bu, onların daha çox müsbət keyfiyyət bildirən leksik vahidlər olmasından irəli gəlir. Bılar *Abbasqulu bəyin* babası, atasıgildə qonax qalıflar. Onu sonra aparıf Arazdan keçiriflər o taya [Qarabağ: folklor da bir tarixdir: 2012, s.289]. F.Xalıqov göstərir ki, cəmiyyət üzvlərinin adları əhatə dairəsinə, əmələgəlmə mənbələrinə və tərkibinə, yerinə yetirdiyi vəzifəyə və s. xüsusiyyətlərə görə bir sıra növlərə ayrılır. Əgər təxəllüs ona sahib şəxsin yaradıcılıq məhsulu, dünyagörüşü, bədii zövqüdürsə, bu xüsusiyyətlər ləqəblərdə əhatə olunmur. Belə ki ləqəblər şəxsiyyətin həyat və fəaliyyətinin bəzi məqamlarını, əqidəsini izləməyə imkan vermir və təxəllüslərdən bu xüsusiyyətləri ilə fərqlənir.

Azərbaycan antroponimiyasının böyük bir hissəsini təşkil edən təxəllüslər uzun bir tarixi dövrün məhsulu kimi qiymətli dil faktları hesab edilir.İnsanlar arasında ünsiyyəti idarə etmək baxımından əsas ad kateqoriyaları kifayət etmədiyindən təxəllüslər yaranır. Təxəllüslərin yaranma tarixi hələ soyadların yaranmasından əvvəlki dövrlərə təsadüf edir.

Bütün şəxslər təxəllüsə malik olmur. M.Çobanov təxəllüsün müvəqqəti xarakterli olduğunu, nəsildən-nəslə kecmədiyini, onun ömrünün bir nəslin və ya onu daşıyan adamın ömründən də az oldugunu qeyd edir ki, bunun da elmi əsası yoxdur. Ona görə ki Kəngərli təxəllüslü nəslin dəfələrlə dəyişdiyi göz önündədir

Qarabağ folklorunda işlənən təxəllüslərə nəzər yetirək:

Bizdə – *Zəngilanda Əbdülsəməd bəy Zəngilani* deyilən bir mükəmməl şəxs olub. Məhəmməd bəy Aşiq Zəngilani xalq ruhunda yazan Azərbaycan şairlərindən biridir. Əslində, burada “Zəngilani” təxəllüsdən çox nisbədir.

*Aşıq Qurbani* gəncəli Ziyad xanın qızı Pəri xanımı alıb geri qayıdarkən indi pir olan yerdə yatıb.(Aşıq Qurbani piri)˙. Bir dəfə taxıl biçimi zamanı *Sarı Aşıq* bir kəndlinin evində qonaq imiş. Ev yiyəsi oğlanları ilə biçilib bənd vurulmuş taxılı xırmana daşıyır, bir tərəfdən at qoşulmuş vəl ilə taxılı döyürmüşlər [Qarabağ: folklor da bir tarixdir: 2012, s.287].

Ləqəblərdən fərqli olaraq, təxəllüslər ona sahib şəxsin təxəyyül məhsulu olub dünyagörüşlə, bədii zövqlə bağlıdır. Ləqəblərdən fərqli olaraq, təxəllüslər şəxsiyyətin həyat və fəaliyyətinin bəzi məqamlarını, ideyalarını müşahidə etməyə imkan verir. Qarabağ folklorundakı ləqəblər emosionallıq və ekspressivlik yaratmaqda digər antroponimik vahidlərdən fərqli xüsusiyyət daşıyır.

“***Titul*** bildirən sözlərin dilin leksik tərkibində özünəməxsus yeri var. Buraya aid edilən *şah, ağa, bəy, paşa, xan, sultan, vəzir, əmir, mirab, cuvar, şatır* və s. sözlər ümumişlək söz-

lər kimi təsəvvür olunur. *Titul* fransız sözü olub "yazı, fəxri ad" deməkdir. Titul tarixi kateqoriya olub, ondan istifadə tarixi də çox qədimdir.

Titullar rəsmi xarakter daşıyır, xüsusi fərmanla verilir. "Ərəb və fars dillərində "titul" termini olmadığı üçün bütün titul, ləqəb, fəxri ad və s. terminlər təkcə "ləqəb" termini ilə ifadə olunur və bu dolaşıqlıq, müxtəliflik indi də qalmaqdadır [Adilov: 2019, s.42].

Qarabağ folklorunda işlənən antroponimlər dini-əsatiri, əfsanəvi olduqları kimi, folklorda qeyri-real onovahidlərə də rast gəlinir. Bu tip titullara bunları nümunə göstərə bilərik: ***Süleyman, Zal, Nəmrud, Adəm, Xəlilüllah, Yusif, Mahi-Kənan, Nuh, Piri-Kənan, Zöhhak, Şahi –Mərdan*** və s.

"Titul leksik vahidi mənşəcə fransız sözüdür və yazı, fəxri ad deməkdir. Leksik vahid, ümumiyyətlə, coxmənalıdır. Dilçilikdə ancaq xüsusi adlar qrupunun bir növünü təşkil edir" [Xalıqov: 2009, s.59]. A.Qurbanov göstərir ki, tarixən Azərbaycan dilində aşagidaki titul adlar olmuşdur: *Aga, Bəy, Xan, Paşa, Vəzir, Sultan, Əmir, Şah, Mirzə, Kərbəlayı, Molla, Məlik, Padşah, Xanım, Xatın, Şahzadə, İmam, Hacı, Xacə, Xotkar* və s.."Göstərilən leksik vahidlər apelyativ formada titul, xüsusiləşdikdə isə şəxs adı kimi işlənməkdədir" [Qurbanov: 1993, s.59].

Titullar antroponimlərin yaranma prosesində fəal iştirak edirlər. Bu hal ona görə baş verir ki, titullar hamısı müsbət keyfiyyət daşıyır və o insanlar titul daşıyır ki, onlar həyatda müəyyən vəzifə, mənsəb qazanmışlar.

Qarabağ folklorunda işlənən titulların çox böyük bir qismini dini titullar təşkil edir. Məsələn,

Gediflər ki, *Hajı Əziz* atın yanındadı, yapıncısı da çiynində.

*Hajı Qaramanın* namazın qılan Molla Salah baba olufdu.

Sora *Hafiz Paşanın* başçılığı altında bir bölük götürüb gəlir Zəngilana.

Bu günün özündə də deyillər ki, *Seyid Həsən ağa* elə bir nər kişi idi ki, ayağını yerə vursaydı, yer paralanardı.

O, yolnan getməhdə olsun, eşit *Şah Abbasnan* vəzir Allahverdi xandan.

*Şah Abbas* qayıtdı ki, vəzir, mən qızılları vermişdim, sən də atı verdin apardı.

Balabanı çala-çala girdim bağa,
Əmim qızı *Soltan ağa,*
Gəl gedəh oynamağa.
Oynamağın vaxdı dəyil,
Qızılgülün taxdı dəyil.

Mən *Molla Həsənnidə* əv hörürdüm.

Gəldim bını irəhmətdih *Suqra Çələbiyə* nağıl elədim.

O Əli nağıl elədi ki, bir dəfə *Hajı Qaramana* getmişdih.

*Hajı Qaramanın* namazın qılan *Molla Salah* baba olufdu. *Molla Alı* çox oxumuş kişiydi.

## ƏDƏBİYYAT


1. Adilov M. Paşayev A. Azərbaycan onomastikası. Bakı, Elm , 2019, 101 s.
2. Cabbarlı Y.K. Kiçiltdiyimiz böyük söz: “Abdal” əslində kimdir? [Elektron resurs] https://az.azvision.az/news.php?id=96299
3. Çobanov M. Familiya, təxəllüs. Tbilisi, 1987
4. Xalıqov F. Azərbaycan onomalogiyası. (Folklor əsasında) Bakı: Müəllim. 2009. (240 s.)
5. Qarabağ: folklor da bir tarixdir ı kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri). Bakı, 2012
6. Qurbanov A. Azərbaycan adları.Uşaqlara necə ad seçməli? Bakı: 1993
7. Флоровская В. А. Прозвища в русских говарах .Кубани-Этнография имен. М. 1971


**Rafiq MAMMADOV**

**NICKNAMES, PSEUDONYMS AND TITLES IN KARABAKH FOLKLORE**


**SUMMARY**

Nicknames, nicknames and titles form a certain layer of the onomastics of the Azerbaijani language. Nicknames, pseudonyms, and titles are studied as auxiliary names in the anthropological branch of onomastics. It is impossible to think of any language and its anthropological system without auxiliary names. No matter how much nicknames, nicknames and titles are studied in the same system - in anthropology, there are not a few different nuances between them. Although nicknames are given to people by society, pseudonyms are chosen by people themselves. Titles are given by the state to a certain class. All three series of auxiliary names are frequently found in examples of Karabakh folklore. Nicknames, nicknames and titles found in Karabakh folklore are mentioned in the article.


**Keywords***: title, pseudonym, nickname, auxiliary, anthropology, name.*

**Рафик МАМЕДОВ**

**ПРОЗВИЩА, ПСЕВДОНИМЫ И ТИТУЛЫ В КАРАБАХСКОМ ФОЛЬКЛОРЕ**


**РЕЗЮМЕ**

Прозвища, псевдонимы и титулы составляют определенный пласт ономастики азербайджанского языка. Прозвища, псевдонимы и титулы изучаются как вспомогательные имена в антропологическом разделе ономастики. Ни один язык и его антропологическая система немыслимы без вспомогательных названий. Сколько бы прозвища, псевдонимы и титулы ни изучали в одной системе - в антропологии между ними не мало отличительных нюансов. Хотя прозвища людям дает общество, псевдонимы выбирают сами люди. Титулы даются государством определенному классу. Все три ряда вспомогательных имен часто встречаются в образцах карабахского фольклора. В статье упоминаются прозвища, псевдонимы и титулы, встречающиеся именно в карабахском фольклоре.


**Ключевые слова:** *титул, псевдоним, прозвище, вспомогательный, антропология, имя.*